# Şərq qapısı



*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 5 (21.916)

*11 yanvar 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclasda nitq söyləyib.

Prezident İlham Əliyev qeyd edib ki, 2017-ci ildə Azərbaycan sürətlə və uğurla inkişaf edib. Qeyri-neft sektorumuz artıb və burada artım 2,5 faiz təşkil edir. Sənaye sahəsində qeyri-neft sektorumuz 3,6 faiz, kənd təsərrüfatı isə 4,1 faiz artıbdır. Keçən il ölkəmizdə bir çox önəmli infrastruktur və sosial layihələr icra edilib. 2017-ci ildə valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıb və hazırda təxminən 42 milyard dollar təşkil edir.

Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, 2018-ci ildə də Azərbaycanda müsbət meyillər daha da güclənəcəkdir.

Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılıb. Bunu nəzərə alaraq 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edirəm.

## Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının şura iclası keçirilib

***Şura iclasında 2017-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib. Tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov açaraq məruzə edib.***



Bildirilib ki, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı 2017-ci ildə gənclərlə işi daim diqqət mərkəzində saxlayıb, təşkilatın Gənclər Birliyi Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi ilə birlikdə müxtəlif tədbirlər keçirib. Çağırışçıların həqiqi hərbi xidmətə yola salınmasında təşkilatın Gənclər Birliyinin, Qadınlar Şurasının üzvləri fəallıq göstərib, idmanın inkişafına, yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilib.

Qeyd olunub ki, ötən il də rayon təşkilatı üzvlərinin sayı artıb, keyfiyyət dəyişiklikləri baş verib, partiya intizamı gücləndirilib. Təşkilat tərəfindən İdarə Heyətinin və şuranın iclasları, toplantı və elmi-praktik konfranslar keçirilib.

Hazırda rayon təşkilatının 55 ərazi ilk təşkilatı 5 min 515 partiya üzvünü öz ətrafında birləşdirir. Onlardan 2 min 609 nəfərini qadınlar, 1658-ni isə gənclər təşkil edir. Ötən il partiya sıralarına 91 nəfər qəbul olunub.

Qadir İbrahimov vurğulayıb ki, cari ildə də rayon təşkilatı ərazi ilk təşkilatları ilə əlaqəni daha da gücləndirəcək, tələbkarlıq, təşəbbüskarlıq və yenilikçilik, yeni iş və metodlardan istifadə diqqətdə saxlanılacaqdır. 2018-ci il fevralın 7-də partiya üzvləri rayon təşkilatının yaranmasının 25 illik yubileyini qeyd edəcəklər.

Şura iclasında Yeni Azərbaycan Partiyası Rayon Təşkilatının Gənclər Birliyinin sədri Təbriz Hüseynzadə, Qadınlar Şurasının sədri Xanım Tağıyeva, Yaycı kənd ərazi ilk partiya təşkilatının sədri Vaqif Abdullayev, Bənəniyar kənd ərazi ilk partiya təşkilatının sədri Duvangir Əhmədov çıxış ediblər.

İclasda müzakirə edilən məsələ ilə əlaqədar qərar qəbul olunub.

Sonra İdarə Heyətinin yığıncağı keçirilib, təşkilatın Gənclər Birliyinin hesabatı dinlənilib, bir qrup gənc Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilib.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

## 2017-ci ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi 2017-ci ildə öz işini təsdiq edilmiş tədbirlər planına uyğun qurub, gənclər arasında bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması üçün məqsədyönlü tədbirlər həyata keçirib. Ümumilikdə, il ərzində nazirlik tərəfindən dövlət gənclər siyasəti və idman sahəsində 394 tədbir keçirilib ki, bunlardan 140-ı gənclərlə iş, 254-ü isə kütləvi bədən tərbiyəsi və idman sahələrini əhatə edib.

Bu fikirləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya iclasında nazir Azad Cabbarov səsləndirib. Bildirilib ki, nazirlik tərəfindən 2 fevral – Gənclər Günü və 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı gənclərin mükafatlandırılması məqsədilə tədbirlər keçirilib. Bundan başqa, 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü, 15 İyun – Milli Qurtuluş Günü, 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi, həmçinin Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə əlaqədar tədbirlər planı hazırlanıb və icra olunub. Bu il ilk dəfə olaraq "Azərbaycan İntellektual Birincisi" layihəsinin muxtar respublika mərhələsi keçirilib, layihənin final mərhələsində muxtar respublikanı təmsil edən komandalar "Nə? Harda? Nə zaman?" və "Vətəni tanı" intellektual oyunlarında III yerin sahibi olublar.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar Naxçıvan Şahmat Mərkəzində Beynəlxalq Şahmat Festivalı, İlham Əliyev adına Olimpiya-İdman Kompleksində pauerliftinq və bench-press idman növü üzrə beynəlxalq turnir, yeniyetmələr arasında "Heydər Əliyev kuboku-2017" Beynəlxalq boks turniri, Şərur Olimpiya-İdman Kompleksində kikboksinq üzrə peşəkarlararası kəmər müdafiəsi uğrunda döyüşlər, Naxçıvan Muxtar Respublika Stadionunda "Azərbaycan kuboku"nun final oyunu, futbol üzrə "Heydər Əliyev kuboku" turniri keçirilib, turnirdə "Araz-Naxçıvan" komandası III yerə layiq görülüb.

Ötən il ərzində ayrı-ayrı idman növləri üzrə muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib, idmançılarımız dünya çempionatlarında 5, Avropa çempionatlarında 1, beynəlxalq turnirlərdə 89, IV İslam Həmrəyliyi Oyunlarında 1, Asiya çempionatlarında 2, Avrasiya çempionatlarında 13, Azərbaycan birinciliklərində 129 medal olmaqla, 240 medal qazanıblar. Ümumilikdə, Naxçıvan Muxtar Respublikasında 40 minə yaxın yeniyetmə və gənc idmanla məşğul olur. Ötən il ərzində nazirlik tərəfindən keçirilən idman tədbirlərində 9 minə yaxın idmançı iştirak edib.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Şərur və Culfa Rayon Gənclər və İdman idarələrinin rəisləri Ramil Dadaşov və Ümüd Həsənlinin çıxışları olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə komissiyada keçirilən kollegiya iclasını komissiyanın sədri İsmayıl Qəribli açaraq bildirib ki, 2017-ci ildə Naxçıvan Muxtar Respublikasında vətəndaşların dövlət qulluğuna qəbulunun mərkəzləşdirilmiş qaydada müsabiqə yolu ilə və şəffaflıq əsasında həyata keçirilməsi təşkil edilib. Dövlət orqanlarında 642 vakant vəzifənin tutulması məqsədilə elan olunmuş müsabiqənin test imtahanında iştirak etmiş 722 namizəddən 389-u müvəffəqiyyət qazanıb, onlardan 167-si vakant vəzifələrə təyin olunub. Ötən il komissiyada 64 namizəd tərəfindən vakant aparat rəhbəri, şöbə müdiri və sektor müdiri vəzifələrinin tutulması üçün test imtahanları keçirilib, onlardan 22 nəfəri müvəffəqiyyət qazanıb.

Qanunvericiliyə uyğun olaraq test imtahanlarında uğur qazanmış 394 nəfərə sertifikatlar verilib. Həmçinin müvafiq dövlət orqanlarında 25 dövlət qulluqçusu tərəfindən vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilən daxili müsabiqələrdə komissiyanın nümayəndəsinin iştirakı təmin edilib.

2017-ci ildə ehtiyat kadrlarla işin təşkili diqqətdə saxlanılıb, ehtiyat kadrlar siyahısında olan 5 namizəddən 1-i vakant vəzifəyə təyin edilib.

Vurğulanıb ki, ötən ildə də muxtar respublikada fəaliyyət göstərən dövlət qulluqçularının Dövlət Qulluqçuları Reyestrinə daxil edilməsi işləri davam etdirilib. Hazırda dövlət orqanlarında 60 nəfər siyasi, 1936 nəfər inzibati və 525 nəfər yardımçı vəzifə tutur. Dövlət qulluqçularının 28,5 faizini gənclər, 22,6 faizini isə qadınlar təşkil edir. 2017-ci il ərzində 14 dövlət qulluqçusu fəxri ad və medallarla təltif edilib. 25 nəfər barəsində intizam tənbeh tədbirləri tətbiq olunub.

Ötən il ərzində test imtahanlarında



iştirak etmiş 866 nəfərə komissiya tərəfindən elektron xidmətlər göstərilib. İl ərzində komissiyanın test bazasının yeni suallarla zənginləşdirilməsi və testlərin ekspertizasının davam etdirilməsi diqqətdə saxlanılıb.

Yeni Əsasnaməyə uyğun olaraq komissiyada 56 nəfərin iştirakı ilə dövlət qulluğu və miqrasiya orqanlarında xidmətə qəbul üçün hazırlıq kursları təşkil edilib.

2017-ci ildə muxtar respublikanın 53 dövlət orqanı üzrə inzibati vəzifə tutan 1522 dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilib.

Sonra məruzə ətrafında çıxışlar olub.



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Ramilə Seyidova açıb. Bildirilib ki, ötən il ərzində gənclər arasında ailə institutunun möhkəmləndirilməsi, reproduktiv sağlamlığın qorunması, ailə dəyərlərinin təbliği və digər məsələlərlə əlaqədar muxtar respublikanın kənd mərkəzlərində maarifləndirici tədbirlər keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar aztəminatlı ailələrin üzvü olan 56 qadın müvafiq peşə kurslarına cəlb olunmaq üçün aidiyyəti orqanlara göndərilib.

Qadınların özünüməşğulluğunun təmin edilməsi və istedadlarının üzə çıxarılması məqsədilə muxtar respublikanın rayonlarında və Naxçıvan şəhərində təşkil olunan istedadlı qadınların əl işlərinin 8 sərgi-satışında 298 istedadlı qadının 9251 manat dəyərində 1403 əl işi satılaraq dəyəri iş sahiblərinə ödənilib.

Hesabat ilində dövlətimiz qarşısında xidmətləri olan qadınlarımızın yubileyləri, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranmasının 10 illiyi, 8 Mart Beynəlxalq Qadınlar bayramı, Beynəlxalq Ailə Günü və 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü geniş şəkildə qeyd olunub.

Vurğulanıb ki, 1998 sağlamlıq imkanları məhdud olan uşaqların təhlili aparılıb, onlardan 113-ü məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrinə göndərilib.

Sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkil edilməsi də diqqət mərkəzində saxlanılıb, 87 uşağa məktəbli paltarı və dərs ləvazimatları, eləcə də qış geyimləri verilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq komitə tərəfindən monitorinq keçirilib, elektron məlumat bankına 11400 uşaq haqqında fərdi məlumatlar daxil edilib.

2017-ci ildə valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 6 və övladlığa götürülmüş 6 uşağın ümumi uçotları aparılıb, monitorinqlər təşkil edilib.

Ümumilikdə, 2017-ci il ərzində komitə tərəfindən 56 tədbir, o cümlədən 5 müsabiqə və 8 sərgi-satış keçirilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# 2017-ci ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*2017-ci ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən yığıncağı cəmiyyətin direktoru Mahir Əliyev açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar "Naxçıvan Dəmir Yolları" MMC üzrə 2017-ci ildə dəmir yolunun ayrı-ayrı sahələrində təmir işləri aparılıb, qatarların hərəkətinin təhlükəsizliyi təmin edilib və bir sıra tədbirlər həyata keçirilib.

Ötən il cəmiyyətin Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 71 min 70 ton müxtəlif təyinatlı yüklər daşınıb. Türkmənistan Respublikasından muxtar respublikaya 69 vaqon, 4400,6 ton gübrə gətirilib. Naxçıvan-Məşhəd-Naxçıvan beynəlxalq sərnişin qatarı vasitəsilə 1936 nəfər sərnişinin gediş-gəlişi təmin olunub.

Qeyd edilib ki, qatarların hərəkətinin təhlükəsizliyinin təmin edilməsi və hərəkət sürətinin yüksəldilməsi məqsədilə mədaxil olunmuş təzə ağac şpallardan 1052 ədədi dəyişdirilib. Yol təsərrüfatında sağlamlaşdırma işlərinin aparılması məqsədilə 89 yararsız ağac şpal dəmir-beton şpalla əvəz olunub. Daşımaların səmərəli təşkili məqsədilə Ordubad stansiyasının 2-ci və Şərur stansiyasının 3-cü qəbul-göndərmə, eləcə də yükləmə-boşaltma yollarında aparılan əsaslı təmir işləri başa çatdırılıb. Naxçıvan Yanacaq Anbarına məxsus dalan yolda və Naxçıvan stansiyasının 11-ci yolunda aparılan təmir işləri də yekunlaşıb.

Vurğulanıb ki, ötən il ərzində Ordubad dəmiryol sərnişin vağzalı və yol sahəsinin inzibati binalarında, yolun 369-cu kilometrində yerləşən 4 saylı yol məntəqəsində, idarəetmə mərkəzində, yol sahəsinin yardımçı binalarında, yük anbarlarında, sərnişin və yük platformalarında, eləcə də onları əhatə edən ərazidə aparılan kompleks tikinti, yenidənqurma və əsaslı təmir işləri yüksək səviyyədə həyata keçirilib. Həmçinin muxtar respublikamızda dəmir yolu infrastrukturunun texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlərin davamı olaraq Culfa stansiyasında müasir tələblərə cavab verən yeni İstismar Vaqon Deposunun tikintisi aparılır.

Diqqətə çatdırılıb ki, 2017-ci ildə cəmiyyət üzrə iqtisadi göstəricilərin yerinə yetirilməsi qənaətbəxş olub. Belə ki, yerlərdə qeyri-standart qaz və elektrik qızdırıcılarından istifadənin qarşısı tamamilə alınıb. Bütün növ yanacaqlardan norma daxilində yararlanmaqla, zəruri olmayan qızdırıcı və işıqlandırıcıların istifadəsinə son qoyulub. Bu işlər cari ildə də davam etdiriləcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olub.



***Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində bu münasibətlə keçirilən yığıncağı müəssisənin direktoru Behruz Əzimov açaraq məruzə ilə çıxış edib.***

Qeyd olunub ki, 2017-ci ildə muxtar respublika əhalisinin, təşkilat və müəssisələrin neft və maye qaz məhsullarına olan tələbatını ödəmək məqsədilə müəssisəyə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən 32 min 554,5 ton A-92 benzini, 107 min 821,7 ton dizel yanacağı, 9 min 125,3 ton bitum, 10 min 999,7 ton mazut, 269,2 ton müxtəlif növ yağlar, 1975 ton maye qaz gətirilib.

Alınan yanacaq muxtar respublikaya Bakı-İran İslam Respublikası və Bakı-Gürcüstan-Türkiyə marşrutları ilə daşınıb. Belə ki, Gürcüstan-Türkiyə yolu ilə 22 min 809,5 ton, İran İslam Respublikasından keçməklə 139 min 584,9 ton, ümumilikdə isə muxtar respublikaya hər iki marşrutla 162 min 394,4 ton neft məhsulları gətirilib.

Bildirilib ki, müəssisə 2017-ci ildə ümumi dövriyyəsi 103 milyon 209 min manat olan 160 min 766 ton müxtəlif neft məhsulları satıb. 2017-ci ildə müəssisə satışdan 900,6 min manat mənfəət əldə edib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan təhsil, səhiyyə və mədəniyyət müəssisələrinə 2017-2018-ci illərin payız-qış mövsümü üçün tələb olunan 226 992 litr dizel yanacağı yerlərdə təhvil verilib.

Qeyd olunub ki, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olmasına daim nəzarət edilib və bu istiqamətdə lazımi tədbirlər görülüb, yanacaq ehtiyatı yaradılıb. 10 yanvar 2018-ci il tarixə müəssisənin anbarlarında 1553 ton A-92 benzini, 2303 ton dizel yanacağı, 965,2 ton mazut, 28,7 ton maye qaz ehtiyatı vardır.

Müəssisənin rəhbəri 2018-ci ildə qarşıda duran vəzifələrdən, bu vəzifələrin yerinə yetirilməsinin vacibliyindən də danışıb.

Məruzə ətrafında müzakirədə müəssisənin neft məhsulları üzrə anbar müdiri Kazım Rzayev çıxış edib.

**Xəbərlər şöbəsi**

*And yerimiz Vətəndir*

# Sərhədlərimiz ayıq-sayıqlıqla qorunursa, deməli, Vətənimiz də qorunur

***Ötən günlərdə Şahbuz rayonunun Şada kəndindəki "N" hərbi hissədə xidməti borcunu yerinə yetirən igid oğullarımızdan yazı hazırlamaq üçün bu ünvana gedərkən illər əvvəl yaxın qohumumun burada xidmət etməsini xatırladım. Bu, o dövr idi ki, ölkəmiz xaos, anarxiya girdabında idi. Orduda çətinliklər baş alıb gedirdi. Ancaq qəvi düşmənlə, sözün həqiqi mənasında, bir addımlıqda üzbəüz dayanan igid oğullarımızın vətənpərvərlik hisslərini o vaxt yaxından duymuşdum. Üzləşdikləri çətinliklərə baxmayaraq, Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayanaraq xidməti borclarını layiqincə yerinə yetirmələri bizim də qəlbimizi fərəh hissi ilə doldurmuşdu.***

Budur, illər ötəndən sonra yolum yenə həmin ünvanadır. Onu deyim ki, hələ 2008-ci və 2009-cu illərdə də bu kənddə həyata keçirilən kompleks quruculuq tədbirlərindən yazı hazırlamaq üçün Şadada olmuş, kənd sakinlərinin qorxmazlığını, düşmən qabağında mərdi-mərdanə dayandıqlarını görmüşdüm. Kənddəki hərbi hissənin timsalında Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığını yüksəltmək üçün son illər həyata keçirilən məqsədyönlü tədbirlərin canlı şahidi olmuşdum.



...Bir neçə il bundan əvvəl gördüyüm məqamları təkrar xatırladım. Elə ondan sonrakı dövrlərdə bu ünvanda həyata keçirilən tədbirləri də yada salmaq yerinə düşər. 2009-cu ildə istifadəyə verilmiş əsgəri-məişət-yaşayış kompleksi və bir qədər aralıda ailəli zabitlər üçün tikilmiş ikimərtəbəli 8 mənzilli binalar orduya göstərilən qayğının ifadəsidir.

Azərbaycan Ordusunun qurucusu, ulu öndər Heydər Əliyevin dediyi kimi: ***"Ordu qurmaq, silahlı qüvvələr yaratmaq böyük bir bina tikmək deyil. Ordu canlı orqanizmdir. Bu, bir tərəfdən canlı orqanizm kimi yaşayır, ikinci tərəfdən isə canlı orqanizm kimi daim inkişaf etməlidir. Ona görə də biz Silahlı Qüvvələrimizi ilbəil təkmilləşdirməliyik, onun gücünü artırmalıyıq, peşəkarlıq səviyyəsini yüksəltməliyik, təchizatını ilbəil yaxşılaşdırmalıyıq".***

...Şadadakı hərbi hissə kənd tam orta məktəbinin lap yaxınlığında, daha dəqiq desək, bir-iki dəqiqəlik məsafədədir. Hərbi hissəyə yaxınlaşdığımızı görən bir zabit bizi qarşılayır. Tanış oluruq. Özünü baş leytenant Babək Mirzəyev kimi təqdim edir. Onunla söhbətə özü körpü salır. Deyir ki, bu gün blokada vəziyyətində olmasına baxmayaraq, Naxçıvan Muxtar Respublikasında ardıcıl və sistemli şəkildə həyata keçirilən ordu quruculuğu prosesi bütün hərbi hissələri əhatə edib. Bu yeniliklər real vəziyyətin obyektiv göstəricisidir. İndi doğma diyarımızın bütün hərbi hissələri belə yeniliklərlə doludur və bu ünvanlarda özünü qabarıq şəkildə göstərən nizam-intizam, səliqə-sahman, yüksək döyüş ovqatı qürur və sevinc hissi doğurur.

Əsgər və zabitlərin nümunəvi xidmət və qulluğu üçün bu hissədə də hərtərəfli şərait var. Müasir tələblər səviyyəsində yeməkxana, anbar, əsgər çayxanası istifadəyə verilib, əsgərlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Bundan əlavə, şəxsi heyətin fiziki hazırlığının artırılması məqsədilə hərbi hissənin həyətində idman qurğuları quraşdırılıb. Əsgərlər burada müntəzəm olaraq idmanla məşğul olurlar. Onların yüksəkkalorili və keyfiyyətli ərzaq məhsulları ilə qidalanmasına da xüsusi önəm verilir.

Müsahibim burada əsgərlərə göstərilən tibbi xidmətdən də danışır. Deyir ki, hərbçilərin tibbi müayinəsini düzgün aparmaq, ilkin müalicəni təşkil etmək üçün bu hərbi hissədə hərtərəfli imkanlar yaradılıb. Bu da hərbi hissədə xidməti borcunu yerinə yetirən əsgərlərin sağlamlığının qorunmasında vacib şərtdir. Hərbi hissədə müsbət mənəvi-psixoloji ab-havanın olması, əsgərlərin siyasi hazırlığının yüksəldilməsi diqqətdə saxlanılan başlıca vəzifələrdəndir. Bunun üçün ideoloji otaqda yaradılan şərait – televizor, qəzet və jurnallar, müxtəlif bədii ədəbiyyatlar əsgər və zabitlərin siyasi və hərbi biliklərinin artırılmasında mühüm rol oynayır. İdeoloji-siyasi təlim məşğələlərində əsgərlərə izah olunur ki, Azərbaycanın, həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müxtəlif zamanlarda hərbi müdaxilələrə məruz qalması, əsasən, ordumuzun yeni formalaşdığı dövrlərə təsadüf edir. Elə ötən əsrin 90-cı illərinin əvvəllərində də Ermənistan hərbi birləşmələrinin muxtar respublikanın sərhədlərinə mütəmadi hücumlarının əsas hədəfi bu qədim yurdu işğal etmək idi. Tarixdən bəllidir ki, Naxçıvan torpaqlarına olan iddialar çoxdan vardı. Mənfur ermənilər həm ötən əsrin əvvəllərində, I Dünya müharibəsi dövründə, həm də sovetlər zamanında bu iddialarından əl çəkməmişlər. Qondarma "böyük Ermənistan" yaratmağın əsas yollarından biri də qədim Naxçıvan torpaqlarını ələ keçirməklə Türkiyə Respublikası ilə Azərbaycan arasında on bir kilometrlik əlaqənin kəsilməsini təmin etmək idi.

Əsgərlərə o da çatdırılır ki, ulu öndər Heydər Əliyevin Naxçıvanda ordu quruculuğuna başlaması ermənilərin bu arzusunu ürəklərində qoydu. Bu gün əsgərlərin qarşısında duran başlıca vəzifə sərhədlərimizin etibarlı qorunmasıdır.

Həmsöhbət olduğumuz digər bir zabit – baş leytenant Miryəhya Seyidov öncə muxtar respublikada fəaliyyət göstərən hərbi hissələrə qayğıdan danışır:

– Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, hissə və bölmələrin döyüş qabiliyyətinin artırılması məqsədilə 2013-cü ildə Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində Naxçıvan şəhərində 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara yeni mənzillərin verilməsi, 2014-cü il yanvar ayının 29-da Daxili Qoşunların Naxçıvan Alayında zabit-gizir ailələri üçün xidməti yaşayış binasının açılış mərasiminin keçirilməsi, Əlahiddə Ümumqoşun Ordusunun hissə və bölmələrinin komandir heyətinin yeni xidməti avtomobillərlə təmin olunması, əvvəlki illərdə aparılan hərbi quruculuq işlərinin davam etdirilməsi və digər tədbirlərin reallaşdırılması, ümumilikdə, orduya və orduda qulluq edən, xidməti borclarını yerinə yetirən zabit və əsgərlərə göstərilən qayğıdır.



Hərbi hissəyə gəlmişkən əsgərlərlə də görüşürəm. İlk ünsiyyətdən onların döyüş hazırlığına, yüksək vətənpərvərliklərinə, dövlətə, xalqa bağlılıqlarına bir daha əmin oluram. Kiçik çavuş Zaur Məmmədov deyir ki, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda ordunun müdafiə potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir, Vətənin müdafiə qabiliyyətinin artırılması üçün kompleks tədbirlər həyata keçirilir, hərbi hissələrin maddi-texniki bazası möhkəmləndirilir. Bizim hissə də müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik hərbi hissəyə çevrilib. Şəxsi heyətin üzərinə düşən müqəddəs vəzifəni hərtərəfli yerinə yetirməsi üçün ən yüksək səviyyədə şərait yaradılıb. Bu isə biz hərbçilərin məsuliyyət hissini daha da artırıb.

Növbəti həmsöhbətim Alı Hüseynov olur. O, fiziki və psixoloji cəhətdən əsl hərbçi, vətənpərvər və hərbi biliklərə malik gəncdir. Söhbət zamanı bildirdi ki, onlara şərəfli bir iş tapşırılıb. "Bizim üzərimizə böyük vəzifə düşür. Həmin vəzifənin məsuliyyətli olduğunu yaxşı dərk edirəm. Arxamızda güclü dövlətin durduğunu hiss edəndə daha mübariz olur, torpaqlarımızın işğaldan azad ediləcəyinə inamımız artır. Bütün əsgərlər arzulayırlar ki, torpaqlarımızın düşməndən azad edilməsi bizim hərbi xidmət dövrümüzə təsadüf etsin!" – bu sözləri qürurla deyir. Onun əsgər yoldaşı Mirqamət Quliyev söhbətə qarışır:

– Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərinin etibarlı qorunmasından asılıdır. Sərhədlər isə o zaman etibarlı qorunur ki, onu qoruyan ordu çevik, peşəkar zabit və əsgər heyətindən ibarətdir. Azərbaycanın sərhədlərinin etibarlı qorunması bu gün bizə tapşırılıb. Onun öhdəsindən gəlmək üçün hərtərəfli şərait yaradılıb.

*Zabitlərlə, əsgərlərlə söhbətlərimizdən, hərbi hissədə gördüklərimizdən gəldiyimiz qənaət isə belədir ki, bəhs etdiyimiz hərbi hissədə qulluq və xidmət edənlər öz borclarını dərindən dərk edirlər. Vəzifə məsuliyyəti dərk olunan yer isə sərhəddir – Vətənin başlandığı yer. Vətənin başlandığı yer etibarlı, ayıq-sayıqlıqla qorunursa, deməli, müstəqilliyimiz, dövlətçiliyimiz də əbədi və daimi olacaq.*

**Muxtar MƏMMƏDOV**

*Azərbaycan ədəbiyyatında romantizm cərəyanının bayraqdarı Hüseyn Cavidin ədəbi irsinin mövzu, məzmun, ideya və bədii xüsusiyyətlərinə dair indiyədək xeyli sayda tədqiqat işləri aparılmış və onların elmi dəyəri müəyyənləşdirilmişdir. "Cavidi xatırlarkən" adlı kitaba daxil edilən xatirə materiallarında isə şairin bir şəxsiyyət kimi xarakteri və bir sıra özünəməxsus insani keyfiyyətləri haqqında bəzi məlumatlar öz əksini tapmışdır. Araşdırmalar davam etdikcə aydın olur ki, Hüseyn Cavid haqqında hələ deyilməli və yazılmalı sözlər çoxdur. Bu baxımdan məqaləmizdə haqqında söz açacağımız maqam böyük ədibin sərištəli və sadiq bir tələbə kimi səciyyəvi keyfiyyətlərini aşkara çıxarmaqla yanaşı, həm də müəllimi və ustadı görkəmli pedaqoq Məmməd Tağı Sidqi ilə münasibətlərinə aydınlıq gətirməyə imkan verir.*

*Axtarışlar, tapıntılar*

# Ustad müəllimin sadiq tələbəsi

Hüseyn Cavid öz müəllimindən 28 yaş kiçik idi və Cəlil Məmmədquluzadənin "yeniyetmə müəllim və ədiblər üçün darülürfan" adlandırdığı "Tərbiyə" məktəbində beş il onun şagirdi olmuşdu. Bu məktəbdəki təhsil illəri Cavid üçün həm də ona görə böyük əhəmiyyətə malik idi ki, o, məhz burada oxuyarkən bədii yaradıcılığa başlamışdı. Şagirdinin şairlik istedadını duyan Sidqi bu yolda da onun ilk müəllimi və istiqamətvericisi olmuşdur.

Cavid 1898-ci ildə "Tərbiyə" məktəbini bitirdikdən sonra İrana getmiş və bir müddət orada yaşamışdır. Həmin ildən etibarən Sidqi ilə Cavidin münasibətlərində ikinci mərhələ başlamış və bu mərhələ Sidqinin vəfatınadək (1903) davam etmişdir. Təxminən beş ildən artıq bir dövrü əhatə edən həmin mərhələdə onun Sidqi ilə əlaqələri məktublaşma vasitəsilə olmuşdur.

Cavidin İrandan yazdığı məktublarının hamısında müəllimi və ustadına tükənməz sevgisi, hörmət və sədaqəti öz əksini tapmışdır. Bu fikrin təsdiqi üçün onun ayrı-ayrı məktublarından seçdiyimiz aşağıdakı sözlər kifayətdir: "Mərhəmətli və hörmətli ağa", "Müəllim cənabları", "Böyük ustad, cəlallı atamız", "Yüksək mərtəbəli, hörmətli böyüyüm", "İzzətli başçı".

Hüseyn Cavid Sidqidən "Tərbiyə" məktəbində olduğu kimi həmişə öyrənmək, ibrət dərsi götürmək arzusunda olmuşdur. Müəlliminin Cavidə yazdığı məktublardan isə aydın olur ki, o, tələbkar bir pedaqoq kimi heç vaxt keçmiş şagirdinə güzəştə getməmişdir. Bir neçə nümunəni qeyd edək.

Sidqi Cavidin bir məktubunun ona çatmamasından gileylənir. Cavid isə ona bildirir ki, məktubu göndərmişəm. Sidqi aldığı məktublardakı tarixləri tutuşdurur. Cavid müəlliminin bu hədsiz tələbkarlığından bir qədər incik halda yazır: "Sizin rəftarınıza təəccüblənir və heyran qalmışam. Yazırsınız: "İndi hər iki məktubu stol üstünə qoyub tarixlərinə baxıram". Heç fikir etmisiniz ki, bu, məktubdur, onda səhv ola bilər? Tarixi düzgün yazılmaya bilər? Bəlkə də poçtda, çaparxanada itdi?"

Sidqi şagirdinin xəttinin yaxşı olmadığını, mürəkkəb və çətin ibarələrli cümlələr yazmasını da ona irad tutur. Cavid isə üzrxahlıqla müəlliminə belə cavab verir: "Yenə də məktubunun pozuq xəttindən və hərfləri bir-birinin ardına qoşmağımdan danışmışdınız. Digər yerdə isə mürəkkəb sözlər və çətin ibarələr işlətdiyimə işarə etmişdiniz. Nə edim, Mirzə! Xəttimin pozuqluğu vaxtımın darlığındandır, necə ki, bu məktubu dar vaxtımda yazıram. Çətin ibarələrə gəldikdə, mənə elə gəlirdi ki, o ibarələr xoşunuza gələcəkdir, yoxsa mənə çətinliyi yoxdur ki, başqa cür yazam".

Sidqi şagirdinə nə qədər irad bildirsə də, onu nə qədər tənqid etsə də, Cavid yenə də ona "yüksək mərtəbəli, hörmətli böyüyüm", – deyə müraciət edir və bildirir ki, "Həmişə... tapşırıqlarınızı və təsadüfi müraciətlərinizi gözləyirəm".

Sidqi öz məktublarında həmişə Cavidə təhsilinin qayğısına qalmağı və məlumat dairəsini genişləndirməyi tövsiyə edirdi. O, şagirdinə İranda nəşr olunan mətbuatı, xüsusilə "Nasiri" qəzetini izləməsi, bəzi zəruri kitabları əldə edib oxuması haqqında tapşırıqlar verməklə yanaşı, özünə lazım olan kitabları da tapıb göndərməsini ondan xahiş edirdi. Cavidin Sidqiyə yazdığı məktublarında müəlliminin bütün tövsiyə və tapşırıqlarını yerinə yetirməsi haqqında ətraflı məlumatlar vardır: "Sizin məktubunuz çatan kimi beş cild "Təshihül-hesab" kitabı və bir şüşə əla mürəkkəb bazardan aldım. Lakin... adam tapmıram ki, onları göndərəm... İnşallah, Naxçıvana gəldikdən sonra... sizə təqdim edərəm". Başqa bir məktubunda isə Cavid müəlliminə hesabat verərək yazır: "Yazdığınız məsələ haqqında xəbər verirəm ki, "Nasiri" qəzetini abunə ilə alıb oxumaq artıq lazım deyildir. Çünki üç gün bundan əvvəl buraya gələn bir seyid həkimin ara-sıra bura yolu düşür, qardaşımla dostdur. Ona hər on gündən bir "Nasiri", "İzzət", "İttila" qəzetləri ayrıca olaraq verilir... mən isə ondan alıb oxuyuram". Cavid hesabatını belə davam etdirir: "...Səfər ayının birindən səkkizinədək "Əmsilə" və "Şərhi-Amil" kitablarını oxuyub bitirdim. Ayın səkkizindən bəri "Sərfi-mir"i oxuyuram. İnşallah... axırınadək "Sərfi-mir"i də bitirib "Təsrif" kitabını oxuyacağam".

Cavidin məktubda adını çəkdiyi kitablar o dövrün mədrəsələrinin əsas tədris vəsaitləri idi. Şübhəsiz ki, bu kitablardan əldə etdiyi məlumatlar onun sonralar yazacağı əsərlər üçün müəyyən dərəcədə əhəmiyyətli olmuşdur.

Cavidin Sidqiyə yazdığı 28 iyul 1903-cü il tarixli bir məktubu Urmiyadan göndərilmişdir. Həmin məktubda Cavid müəlliminə məlumat verir ki, artıq Urmiyadadır. Sonrakı sətirlərdə isə o, bu şəhərin təbiəti, əhalisinin məşğuliyyəti, mədəni səviyyəsindən söz açır.

Bu məktubdan sonra Cavidin Sidqiyə yazdığı bir məktubu da vardır. Lakin bu dəfə məktub Məhəmməd Tağı Sidqiyə yox, onun oğlu Məmmədəli Sidqiyə ünvanlanmışdır: "Naxçıvanda əziz və ərcüməndim ağayi Mirzə Məmmədəli ibn mərhum Məşədi Tağı Sidqinin xidmətinə! Çün əbəvi-məqami Sidqi mərhumun xəbəri-vəhşət əsərini qürbət vilayətdə eşitdim... nə dərəcədə möhnət və ələmə və qüssəvü qəm bəndeyi-dilxəstə pərşikəstəyə üz verdi. Elə bilirəm ki, həqiqətdə mənim öz atam vəfat edib".

Bəli, Sidqinin sədaqətli şagirdi və dostu Cavid öz ustadının qəfil ölüm xəbərini Urmiyada almışdı. Müəlliminin oğluna başsağlığından sonra o, "Şərqi-Rus" qəzetinin 23 yanvar 1904-cü il tarixli nömrəsində Sidqinin vəfatı münasibətilə vida sözü və farsca yazdığı bir şeiri dərc olunmuşdur. Vida sözünün bir yerində Cavid yazırdı: "O vücudi-ali və məsudun... dünyayi-fanidən aləmi-cavidani tərəfinə rehlət buyurmağı... ərbabi-təməddün və əshabi-maarifdən ötrü mayəyi-hüzn və məlal oldu".

Cavid Sidqinin vəfatından sonra da əziz müəllimini unutmamış, 1910-cu ildə Bakıda çıxan "Həqiqət" qəzetinin 4 yanvar tarixli nömrəsində dərc olunan "Naxçıvanda nə gördüm?" adlı məqaləsində "Tərbiyə" məktəbinin əhəmiyyəti və taleyindən, həmçinin Sidqinin "milli məktəb" *(Hüseyn Cavid)* uğrunda apardığı mübarizələrdən söz açaraq onu yüksək qiymətləndirmişdir: "Sidqi vətənpərvər idi, həmiyyətli idi, məslək sahibi idi, millətini sevirdi".

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, böyük ideallar şairi, Azərbaycan ədəbiyyatının xəzinəsini ölməz əsərləri ilə zənginləşdirən Hüseyn Cavid həm də yüksək insani keyfiyyətləri özündə cəmləşdirən böyük şəxsiyyət olmuşdur.

**Fərman XƏLİLOV**
***filologiya üzrə elmlər doktoru***

*Səhiyyə*

# Şüa diaqnostikası: üstünlükləri, riskləri, fəsadları

***Günümüzdə elə bir xəstəlik yoxdur ki, radiologiyadan istifadə edərək onun diaqnostikasını aparmaq mümkün olmasın. Bu gün radiologiyanın imkanlarından istifadə edərək vaxtilə çətin aşkarlanan xəstəliklərə daha dəqiq diaqnoz qoymaq mümkündür.***





Bu barədə həmsöhbət olduğum Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkimi Vasif Seyidov bildirdi ki, son illərin istehsalı olan tibbi avadanlıqların tətbiq olunması ilə xəstənin radiasiyaya məruzqalma müddəti əvvəlki dövrlərlə müqayisədə çox azalıb. Ona görə də bu müayinədən çəkinməyə ehtiyac yoxdur. Müayinələr yalnız həkim məsləhəti ilə aparılmalıdır. Bu isə xəstənin vəziyyəti ilə bağlıdır. Onkoloji xəstələrin müayinəsi məsələsində də xəstənin vəziyyəti nəzərə alınmalıdır. Zərurət olan yerdə, təbii ki, radiasiyanın miqdarı o qədər də əhəmiyyət kəsb etmir. Ancaq kiminsə bir yeri ağrıyırsa, dərhal radioloji müayinəyə üz tutması da doğru deyil.

Ultrasəslə müayinə mütəxəssisi radiologiyada, şüa diaqnostikasında hər müayinə metodunun özünəməxsus rolunun olduğunu vurğuladı. Bəzi orqan və toxumaları bu vasitə ilə də dəqiq görməyin mümkün olmadığını bildirdi. Belə ki, sümüklə əhatə olunmuş toxumalar, eləcə də beyin toxuması ultrasəs müayinəsi zamanı görünmür. Yalnız yeni doğulanlarda əmgək açıq olduğu üçün oradan beyin toxumasını görmək mümkün olur. Eləcə də mədə, bağırsaq kimi bəzi orqanlarda ultrasəs müayinəsi aparıb, dəqiq nəticə əldə etmək imkanları çox azdır. Çünki bu cür orqanlarda ultrasəs dalğaları udulduğundan tam görüntü almaq mümkün deyil.

Vasif Seyidov ultrasəs müayinəsinin zərərsiz olduğunu da vurğuladı. Bildirdi ki, bu müayinə, hətta hər saatbir də aparıla bilər. O, bunu belə izah etdi ki, istifadə etdiyimiz bir çox elektron cihazların ötürdüyü ultrasəs dalğalarını, demək olar ki, gündəlik qəbul edirik. Məsələn, mobil telefonun yaydığı dalğalar müayinə zamanı aldığımız şüadan daha çox olur. Ona görə də bu müayinə üsulundan hamilələrdə, yeni doğulanlarda çox geniş istifadə edilə bilər. Yeni doğulanlarda həm beyin, həm onurğa, həm də qarın boşluğu orqanlarının vəziyyətini öyrənilməsində ultrasəs müayinəsi əvəzsizdir. Amma hamilələrdə bu müayinələr müəyyən mərhələlərdə aparılmalı, tez-tez təkrarlanmamalıdır.

Radioloq onu da xüsusi vurğuladı ki, ultrasəs müayinəsinin nəticəsinin dəqiqliyi onu aparan mütəxəssisin təcrübəsindən çox asılıdır.

Həkim digər bir müasir müayinə üsulundan da danışdı. Bildirdi ki, bu müayinədə incə və avtomatik iynələrlə qalxanvari və süd vəzilərində, böyümüş limfa düyünlərində biopsiyaların aparılması da mümkündür. Bu isə xəstəliyin izləndiyi nahiyədən heç bir kəsik aparmadan həmin orqan toxumasından bir nümunə götürməklə oradakı xəstəlik haqqında məlumat almağa imkan verir.

Digər həmsöhbətimiz Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim-radioloqu İsmayıl Quliyev də kompüter tomoqrafiya müayinələri zamanı ötürülən radiasiyanın böyük ziyanları haqda deyilənlərin yanlış olduğunu xüsusi vurğuladı. Qeyd etdi ki, əslində, texnologiyanın inkişafı sayəsində artıq bir neçə saniyə ərzində dəqiq görüntü almaq, çəkim müddətini də, radiasiyanın səviyyəsini də azaltmaq mümkündür.

İsmayıl həkim bütün bunlarla yanaşı, bu müayinələrin yumşaq toxumalar üçün həssaslığının çox da yüksək olmadığını da bildirdi. Radioloq qeyd etdi ki, qarın boşluğu orqanlarının cərrahi xəstəlikləri zamanı kompüter tomoqrafiya müayinəsi əvəzolunmazdır. Bu müayinə müəyyən orqanlarda, xüsusən ağciyər xəstəliklərinin aşkar edilməsində çox geniş istifadə olunur. İstər onkoloji, istərsə də digər xəstəliklər zamanı həmin metod yaxşı effekt verir.

Kontrast maddənin köməyi ilə aparılan kompüter tomoqrafiya müayinələri barədə danışan həkim dedi ki, bu maddə orqan və toxumalarda yayılaraq onları rənglə boyayır və daha yaxşı görüntü əldə etməyə imkan verir: – Xəstələr bəzən kontrast maddə qəbul etməkdən bir qədər ehtiyatlanırlar. Doğrudur, bu maddə verildəndən sonra xəstədə bəzi ağırlaşmalara da təsadüf edilir. Belə hallarla üzləşməmək üçün həmin maddədən istifadə olunmur. Amma nəzərə almaq lazımdır ki, bu maddə düzgün diaqnoz qoyulmasında mühüm rol oynayır. Bundan çəkinmək doğru olmaz.

Kontrast maddənin verilməsi zamanı orta və ağır dərəcədə rast gəlinən ağırlaşmalara gəlincə, xüsusi dərmanların köməyi ilə aparılan müdaxilələrlə bu halı aradan qaldırmaq mümkündür. Amma "kontrast nefropatiyası" adlanan bir hal da var ki, bu da kontrast maddəsi qəbul olunandan sonra bəzi xəstələrdə, xüsusilə də şəkərli diabetdən, xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanlarda baş verə, hətta 24-48 saat ərzində kəskin böyrək çatışmazlığına gətirib çıxara da bilər. Hərçənd ki, belə hallara çox az rast gəlinir və qarşısı alınır. Müalicə ilə xəstə 10-15 gün ərzində sağalır. Ona görə də risk faktoru olan insanlara müayinədən əvvəl "hidrotasiya" adlanan metod tətbiq olunmalıdır. Yəni həmin xəstə bir gün əvvəl çoxlu maye qəbul etməlidir. Belə olanda ağırlaşmanın qarşısını almaq mümkündür.

Şəkərli diabet xəstələrinin qəbul etdiyi bəzi dərmanlar da kontrast maddə ilə reaksiyaya girib müəyyən problemlər yarada bilər. Ona görə də kontrastlı tomoqrafiya müayinəsindən bir gün əvvəl və bir gün sonra həmin dərmanı içməmək lazımdır.

İsmayıl həkim onu da vurğuladı ki, hamilə və hamiləlik ehtimalı olan qadınlarda kompüter tomoqrafiya müayinəsinin aparılması qadağandır. Ən zəruri hallarda belə, onlara başqa müayinələr tətbiq olunmalıdır. Amma bilmədən müayinə aparılıbsa, ələlxüsus da bu, hamiləliyin ilk üç ayında baş veribsə, daha təhlükəli sayılır. Bu müayinə döldə anomaliyalar yarada, mikrosefaliya, onkoloji problemlər, leykoz və digər qan xəstəliklərinə səbəb ola bilər. Ona görə də həmin müayinə ilk üç ayda təsadüfən aparılıbsa, verilən doza hesablanmalıdır. Dozanın səviyyəsi yüksəkdirsə, hamiləliyi sonlandırmaq məsləhət görülməlidir.

Həkim onu da qeyd etdi ki, südverən ana kompüter tomoqrafiya müayinəsindən sonrakı 24 saat ərzində körpəyə süd verməməlidirlər. Bütün hallarda bu müayinə həkimin göstərişi ilə aparılmalıdır.

Maqnit rezonans tomoqrafiya müayinəsinin ziyanlarının olması barədə məlumatların da yanlış olduğunu deyən radioloq onu da bildirdi ki, bu müayinə qapalı mühitdə aparıldığı üçün insanların bir çoxunda qorxu, həyəcan hissi yaradır: – Bəzi xəstələr hətta bu müayinədən imtina edirlər. Belə xəstələrə açıq maqnit rezonans tomoqrafiya məsləhət görürük. Onların fərqi isə bundadır ki, açıq maqnit rezonans tomoqrafiyanın daha normal görüntü almaq imkanı qapalıya görə aşağı sayılır. Həm də bu zaman çəkim müddəti daha uzun olur.

Hamilələrin, uşaqların maqnit rezonans tomoqrafiya müayinəsindən keçməsi ilə əlaqədar hər hansı qadağa yoxdur və bu müayinə onlara da tətbiq olunur. Yumşaq toxumaların, dayaq-hərəkət sistemi, beyin toxuması müayinələri zamanı maqnit rezonans tomoqrafiya müayinəsinin üstünlükləri çoxdur.

Qeyd olunmalıdır ki, hər xəstəlikdə həmin müayinənin aparılması doğru deyil. Onun mənfi cəhəti dəmirə həssaslığıdır. Ürəyində kardiostimulyator olanlara bu müayinənin aparılması qadağandır. Ortopedik protezlərlə də bağlı qadağalar var. Amma son dövrlərdə hazırlanan protezlər müayinə üçün uyğun sayılır. Bununla belə, onlar da bəzən görüntünü poza, müayinə olunan sahənin üzərini örtə bilər. Amma son texnologiyaların bu halı da aradan qaldırmaq imkanları var.

Onu da qeyd edək ki, vaxtilə bu tibbi avadanlıqların heç biri muxtar respublikamızın səhiyyə müəssisələrində yox idi. Ötən illər ərzində bu sahənin inkişafı, səhiyyə ocaqlarımızın müasir tibbi avadanlıqlarla təchiz olunması son tibbi müayinə üsullarının tətbiqinə, xəstəliklərin vaxtında aşkarlanıb qarşısının alınmasına geniş imkanlar açıb. Artıq muxtar respublika sakinlərinin bir sıra mühüm müayinələrə görə digər yerlərə üz tutmalarına ehtiyac qalmayıb. Səhiyyə sahəsində uğurla aparılan islahatlar, tibb müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, təchizat və kadr hazırlığı ilə bağlı görülmüş işlər muxtar respublikamızda bu sahəni müasir inkişaf səviyyəsinə yüksəldib.

**Ramiyyə ƏKBƏROVA**

## Milli geyimlərimizi yaşadan ünvan – “Möminə xatın” milli moda evi

***Hər bir xalqın tarixini, mədəniyyətini yaşadan, onu dünyada fərqləndirən özünəməxsus milli dəyərləri olur. Azərbaycan xalqının da çox qədim və zəngin tarixə malik milli dəyərləri vardır. Bunlara milli geyimlərimiz, musiqimiz, rəqslərimiz, tarixi abidələrimiz daxildir. Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da milli dəyərlərimizin qorunması və təbliği həmişə diqqətdə saxlanılmış və bu istiqamətdə işlər davam etdirilməkdədir.***



Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” imzaladığı Sərəncam mühüm əhəmiyyət daşıyır. Həmçinin 2012-ci ilin Naxçıvanda “Milli dəyərlər ili” elan olunması muxtar respublikamızda həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirib. Bu, milli dəyərlərimizin bərpasına, qorunmasına və gələcək nəsillərə çatdırılmasına diqqəti daha da artırıb.

Milli dəyərlərimizin ən zəngin qollarından biri də milli geyimlərimizdir. Azərbaycanın milli geyimləri böyük inkişaf yolu keçmiş, xalqın maddi və mənəvi mədəniyyətinin inkişafı nəticəsində zənginləşmişdir. Xalqımızın tarixi ilə sıx bağlı olan geyimlərimiz onun mədəniyyətini öyrənmək üçün qiymətli mənbələrdən biridir.

Müasir dövrdə milli geyimlərimizdən gündəlik həyatda mütəmadi istifadə etmirik, amma bu, mədəniyyətimizin bir parçası olan geyimlərimizin unudulduğu demək deyildir. Çox sevindirici haldır ki, bu gün el şənliklərində çıxışlar edən folklor kollektivləri, aşıqlarımız, rəqqaslarımız milli geyimlərimizdən istifadə etməklə onları təbliğ edirlər. Həmçinin muzeylərimizdə də milli geyimlərimiz qorunub saxlanmaqdadır. Son illərdə “Xınayaxdı” mərasimləri zamanı da milli geyimlərimizdən istifadə olunması onu göstərir ki, xalqımız öz milli dəyərlərini sevir və yaşadır.

Bu gün muxtar respublikamızda milli dəyərlərimizin ən zəngin qollarından olan milli geyimlərimizi yaşadan ünvanlardan biri də “Möminə xatın” milli moda evidir.

Moda evinin təsisçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sevinc Abbasova bu barədə bizi məlumatlandırdı. O, deyir ki, moda evini açmaqda məqsəd milli-mənəvi dəyərlərimizi yaşatmaq, gənc nəsli mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməkdir. Həmçinin bir sıra sosial layihələr vasitəsilə bu məqsədləri dəstəkləmək, teatrlarda, muzeylərdə, hətta filmlərdə müşayiət edilən geyimləri məişət-xalq həyatına tətbiq etməkdir. Moda evinin “Möminə xatın” adlandırılması Naxçıvan Muxtar Respublikasının qədim tarixi-abidələrindən olan, Şərq memarlığının incisi sayılan Möminə xatın türbəsi ilə bağlıdır. Sevinc xanım onu da bildirir ki, bu, Şərq qadınının tarixi simvolunu əks etdirdiyi üçün moda evinin adını məhz “Möminə xatun” qoyduq.

Milli moda evi həm də Azərbaycan xalqının ən qədim adət-ənənələrinin qorunub saxlanması ilə bağlı bir sıra işlər görür.

Şübhəsiz ki, Azərbaycan xalqının ən qədim adət-ənənələrindən biri toylardır. Toydan əvvəl müəyyən mərasimlər yerinə yetirilir. Bunlardan biri də “Xınayaxdı”dır. Sevinc xanım bununla bağlı dedi ki, əvvəllər “Xınayaxdı” mərasimlərində milli geyim geyinilirdi. İndi artıq əvvəlki dövrdən fərqli olaraq həmin mərasimlərimizdə belə geyimlərə daha çox üstünlük verilir. “Möminə xatın” moda evi də “Xınayaxdı” mərasimlərində milli geyimlərdən daha çox istifadə edilməsinə çalışır və bunu təbliğ edir. Əlbəttə, bu təbliğat haqqında fikirlər də müxtəlifdir. Bəziləri düşünürlər ki, bu, əlavə xərcdir, digər qisim isə bildirir ki, bunlar milli geyimlərimizin təbliği üçün əhəmiyyətlidir.

Sevinc xanım onu da bildirdi ki, milli geyimlərimizin təbliği istiqamətində moda evinin həyata keçirdiyi sosial layihələrdən biri də “Xanlıqlar dövrünün saray geyimləri” olub. Layihəyə ona görə bu ad verilib ki, həmin geyimlər zövqoxşayan olmaqla yanaşı, həm də tarixi, qədimliyi özündə yaşadan bəzəkləri, naxışları ilə seçilirdi. Həmçinin bu layihə ilə də Naxçıvan, İrəvan, Gəncə, Quba, Qarabağ və digər xanlıqlara məxsus geyimlər tanıdılırdı.

İkinci layihə isə 2013-cü ildə Azərbaycan milli rəqs geyimlərinin təqdimatı ilə bağlı reallaşdırılıb. Burada bütün yallı rəqs geyimləri, “Turacı”, “Naz eləmə” kimi məşhur rəqslərin geyimləri təqdim olunub. Rəqs geyimlərimiz bizim qədim tarixə malik olan maddi-mədəniyyətimizin tərkib hissəsi olmaqla, həm də qədim milli ənənələrimizin əyani göstəricisidir.

O həmçinin qeyd ki, 2015-ci ildə “Nəsillərə uyğun Azərbaycan qadını” adlı kitabındakı obrazların geyimlərinin təqdimatı da olub. Bu obrazlar içərisində Tomris, Möminə xatın, Sara xatın, Tutibikə, Heyran xanım, Məhsəti Gəncəvi, Qönçəbəyim kimi Azərbaycan qadınlarının geyimləri sərgilənib.

“Möminə xatın” milli moda evində hər kəsin zövqünə uyğun, keyfiyyətli paltarlar da tikilir. Burada istənilən formada milli geyim əldə etmək mümkündür. “Möminə xatın” milli moda evində geyimlərin satışı ilə yanaşı, onların kirayəsi və sifarişlə ünvana çatdırılması da mümkündür. Naxçıvan Dövlət Filarmoniyası, müxtəlif rayonlardakı mədəniyyət müəssisələri və müğənnilər üçün geyimlər tikilir. Buradan milli geyimli gəlinciklər də almaq olar. Həmçinin onu da qeyd edək ki, bu moda evində tikilən milli geyimlər dünyanın bir çox dövlətlərinə – Cənubi Koreya, Ukrayna, Almaniya, İraq, Türkiyə və Yaponiya kimi dövlətlərə də göndərilir. Bu da milli geyimlərimizin tanıdılmasına “Möminə xatın”ın töhfəsidir.

*Bu gün geyimlərimiz də daxil olmaqla bütün milli dəyərlərimizi qorumaq, təbliğ etmək hər bir vətəndaşın borcudur. Çünki tarix dəfələrlə sübut edib ki, bir xalqı yaşadan onun milli-mənəvi dəyərləridir.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Şahmatçımız FİDE ustası olub



Daha bir şahmatçımız FİDE ustası adına layiq görülüb. Belə ki, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirməsi Sadiq Məmmədov bu nominasiyada normasını yerinə yetirib və ötən gün zəka sahibinə mükafat təqdim edilib.

2003-cü ildə Naxçıvan şəhərində anadan olan Sadiq Məmmədov 2010-cu ildən Naxçıvan Şahmat Mərkəzində şahmat ilə peşəkar şəkildə məşğul olmağa başlayıb. İlk günlərdən öz istedadı ilə diqqəti cəlb edən zəka sahibimiz 2011-ci ildə Neftçala rayonunda keçirilən Azərbaycan çempionatının seçmə yarışlarında iştirak edib. İlk yarışdan qalib çıxan idmançımız bundan sonra mütəmadi olaraq şahmat üzrə Azərbaycan çempionatında qələbələr əldə edib. O, 2015-ci ildə gümüş, 2017-ci ildə isə qızıl medal qazanıb. Şahmatçımız Naxçıvanın şahmat ənənələrini Yunanıstan, Xorvatiya, Gürcüstan, İran, Türkiyə, Rusiya və Rumıniyada keçirilən Avropa çempionatlarında uğurla davam etdirib və mükafatçılar sırasına düşüb.

Nəhayət, Sadiq Məmmədov 2017-ci ildə – cəmi 7 ilə FİDE idman ustası normativini yerinə yetirib.

✍ **Ceyhun MƏMMƏDOV**

***El arasında belə bir deyim var: “Ağsaqqal olan yerdə urvat, ağbirçək olan yerdə mürvət olar”. Bu sözlər hər bir azərbaycanlının həyatında əsas meyarlardan biridir. Çünki xalqımız arasında ta qədimdən bu günədək ağsaqqal sözünə, ağbirçək nəsihətinə hər zaman ehtiyac duyulub, ağsaqqallar da, ağbirçəklər də həmişə gənclərə düzgün yol göstərib, onları doğru istiqamətə yönəldən olublar.***

## Ağsaqqala hörmət mənəvi borcumuzdur

Gənc nəsil də hər zaman el ağsaqqallarına hörmət və ehtiram hissi ilə yanaşır, məsləhətlərinə qulaq asırlar. ***“Ağsaqqallar milli-mənəvi dəyərlərimizin qızıl fondudur”***, – deyən ulu öndər Heydər Əliyev ağsaqqalları milli sərvət hesab edərək onlara böyük hörmət bəsləyib. Təsadüfi deyil ki, hələ ulu öndərimiz Naxçıvan Muxtar Respublikasında Ali Məclisin Sədri olarkən doğma diyarımızda Ağsaqqallar Şurasının yaradılması təşəbbüsünü irəli sürüb. Bəs bu gün Ağsaqqallar Şurasının fəaliyyəti necə qurulub? Ağsaqqallar onlara göstərilən diqqət və qayğıdan necə bəhrələnirlər? Elə bu və bu kimi suallara cavab tapmaq üçün şuranın yerləşdiyi ünvana yollandıq.

Şuranın sədri Məmməd Məmmədov dedi ki, bu gün muxtar respublikada yaşlı nəslin nümayəndələri xüsusi qayğı ilə əhatə olunublar. Onların bütün ehtiyacları ödənilir, asudə vaxtlarının səmərəli keçməsi üçün hər cür şərait yaradılır. Ağsaqqallar Şurasının yaradılması isə həmin insanların bir araya gələrək ictimai önəm kəsb edən məsələləri hərtərəfli müzakirə etmələrinə imkan verib. Şuranın 5 nəfərdən ibarət idarə heyəti vardır. Sevindirici haldır ki, bu gün üzvlərimizin sayı ötən illərlə müqayisədə xeyli çoxalıb. Regionumuzda yaşayış səviyyəsinin yüksəldilməsi uzunömürlü insanların da sayını xeyli artırıb. Daha dəqiq desək, hazırda muxtar respublikada 36 min ağsaqqal vardır. Ağsaqqallar Şurası 2008-ci ildən yeni binada fəaliyyət göstərir. Muxtar respublikanın hər bir rayonunda da şuralar yaradılıb. İl ərzində şura tərəfindən müxtəlif tədbirlər təşkil edilir. Ağsaqqalların həmin tədbirlərdə iştirakları təmin olunur, onların məsləhət və təklifləri dinlənilir.

Həmsöhbətim bildirdi ki, müxtəlif layihələrin həyata keçirilməsində ağsaqqallar fəal iştirak edirlər. Bu baxımdan 2010-cu ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirilən “Xeyir-şər mərasimlərində israfçılığın qarşısının alınmasının təbliğində ağsaqqalların rolu” adlı layihəni xüsusi qeyd etmək olar. Həmin məsələnin uğurlu həllində ağsaqqallar öz müdrik nəsihətləri, obyektiv münasibətləri ilə əhəmiyyətli rol oynadılar. Çünki xalqımızın adət-ənənələrinə görə, ağsaqqalların xeyir-şər mərasimlərindəki rolu danılmazdır. Görülən tədbirlər, aparılan maarifləndirici söhbətlər nəticəsində artıq Naxçıvanda yas mərasimlərində israfçılığın qarşısı alınıb. Lakin toy mərasimləri üçün eyni fikirləri demək olmaz. Toy mərasimlərində israfçılıq hər bir xırdalığı ilə özünü açıq şəkildə büruzə verir. Təəssüflə qeyd edək ki, bu gün milli toy görmək arzusu ilə məclislərimizə gələn əcnəbi qonaqlar da toylarımızdakı millilikdən uzaq, bayağı müasirliyi, israfçılığı yaxşı qarşılamırlar. Təbii ki, bu heç də müsbət hal deyil. Elə buna görə də milli dəyərlərin qorunması yönündə görülən işlər bundan sonra davamlı xarakter almalıdır.

Şura sədri onu da qeyd etdi ki, indiki ağsaqqalların çoxu savadlı, daha çox dünyagörüşə malik insanlardır. Kimliyindən asılı olmayaraq, ağsaqqal sözünə, məsləhətinə, hər kəs ehtiram və hörmətlə yanaşır. Üzərimizdə hər cür diqqət və qayğını daim hiss edirik. Bu diqqətin nəticəsidir ki, muxtar respublika ağsaqqallarının bir neçəsi dövlət qulluğu təqaüdü alır. Onlar arasında Prezident təqaüdçüsü olanlar da az deyil. Bütün bunlar biz ağsaqqalları yaşayıb-yaratmağa həvəsləndirir. Ağsaqqallara göstərilən belə diqqət və qayğı isə, heç şübhəsiz, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin bu gün muxtar respublikada uğurla davam etdirilən siyasəti hər bir sahədə böyük nailiyyətlər qazanılmasına imkan verib. Biz də bundan fərəh hissi keçirir, qədim diyarımızın artan inkişaf və tərəqqisinə ürəkdən sevinirik.

O vurğuladı ki, yeni obyektlərin inşa olunması, emal və istehsal sahələrinin fəaliyyətə başlaması və digər tədbirlər doğma yurdumuzun simasını tanınmaz dərəcədə dəyişdirib. Xüsusi qeyd etmək lazımdır ki, yeni obyektlərin açılışları zamanı Ali Məclisin Sədri mütəmadi olaraq ağsaqqallarla görüşür, onların qayğıları ilə maraqlanır.

Burada olduğumuz müddətdə bir neçə ağsaqqalla da görüşüb söhbət etdik. Onlardan Nizami Həmzəyev dedi ki, 70 yaşına çatmış hər bir adama ahıl demək olar. Ancaq daha böyük və dərin həyat təcrübəsinə malik, gənclərin həyatda düzgün yol seçmələrində mühüm rol oynayan şəxslər ağsaqqal kimi tanınırlar.

Müsahibim onu da qeyd etdi ki, Ağsaqqallar Şurası təkcə yaşlı insanların toplaşdığı təşkilat deyil. Buraya cəmiyyətdə sayılıb-seçilən, uzun illər xalqa ləyaqətlə xidmət etmiş elm adamları, siyasi xadimlər, eləcə də sadə və müdrik insanlar toplaşıblar. Biz ağsaqqallar göstərilən diqqət və qayğıdan çox razıyıq. Buna görə dövlətimizə minnətdarıq.

Digər müsahibim Əkrəm Məmmədli isə bildirdi ki, o, gənc yaşlarından hər zaman ağsaqqalların məsləhətlərini dinləyib, nəsihətlərə əməl etdiyi üçün bunun müsbət nəticəsini də çox görüb. O deyir ki, ağsaqqal sözü mənim üçün həmişə dəyərli olub. Bugünkü gənclərimiz də öz həyatlarında belə insanların məsləhətləri ilə hərəkət etsələr, hər zaman xeyir taparlar. Fərəhli haldır ki, bu gün muxtar respublikamızın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında ağsaqqallar yaxından iştirak edir, təşəbbüslərimiz nəzərə alınır. Bu, biz ağsaqqallara verilən ən böyük dəyərdir.

Gənclərdə Vətənə məhəbbət hissinin formalaşmasında, onların milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində ağsaqqalların böyük rolu vardır. Məhz buna görə də biz gənclər onlara daim hörmət və ehtiram göstərməli, adət-ənənələrimizi onlardan öyrənərək qoruyub yaşatmalıyıq.

✍ **Nail ƏSGƏROV**


### *İtmişdir*

Məmmədov Nizami İmamqulu oğlunun adına Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən verilmiş şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, A. Zamanov küçəsi, ev 63-də yaşayan Əliyev Əhməd Məhərrəm oğlunun adına olan 15194 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 30